# AZADLIQ MÜCAHİDİ
# FİRUDİN İBRAHİMİ



Mirzə İbrahimovun "Gələcək gün" romanının qəhrəmanı Firudin İbrahimi Güney Azərbaycan Milli Hökumətinin qurucularından biri və baş prokuroru olub. Dedikcə az ömür sürüb. 1947-ci ildə mənfur şah rejimi tərəfindən 28 yaşında edam olunub, dar ağacından asılıb. Mirzə İbrahimovdan sonra Həbib Sahir, Fəthi Xoşginabi, Balaş Azəroğlu, Mədinə Gülgün, Söhrab Tahir, Xəlil Rza, Arif Səfa, Tariyel Ümid əsərlərində onun poetik obrazını yaradıblar:

Dolaşarkən şimal yeli,
Yurdun qızıl bayrağında,
Ellər ilə od yandırdın,
Babəkilər ocağında.
Lakin əfsus, son işıqtək,
Söndün həyat çırağında.

Bu misralar tanınmış Güney Azərbaycan şairi Həbib Sahirindir. "Namurad Firudin İbrahimiyə" adlı bu şeirin altı sətrinin hər misrasında bir tarix yatır, vətənsevər və şərəfli bir mübarizin həyat yolları işıqlandırılır. O Firudin İbrahimi ki, Cənubi Azərbaycanda milli demokratik hərəkatın rəhbərlərindən biri olmuşdu. 12 dekabr 1945-ci ildə Seyid Cəfər Pişəvəri Nazirlər Kabinetini formalaşdıranda Firudin bəyi Azərbaycan Milli Hökumətinə baş prokuror təyin etmişdi.

İranda qədim tariximizə aid ana dilimizdə ilk əsəri yazmaq Firudin İbrahiminin öhdəsinə düşür. 26 yaşlı gəncə baş prokuror məqamı ilə yanaşı, "Azərbaycan tarixi" kitabının yazılması da həvalə olunmuşdu. Tehran Universitetinin hüquq fakültəsini bitirən F.İbrahiminin gözəl qələmi və jurnalistlik təcrübəsi də vardı. Xarici İşlər Nazirliyi və "Ettelaat" qəzetinin iş təklifinə baxmayaraq, Azərbaycana qayıdıb doğma Vətəninə xidmət etməyə başlamışdı.1943-cü ildən Seyid Cəfər Pişəvərinin təsis etdiyi "Ajir" qəzetində yazıları dərc olunurdu, İran Xalq Partiyası sıralarına qoşulmuşdu. Hələ tələbəlik illərində müxtəlif mövzulu məqalələri "Rəhbər", "Mərdom", "Ettelaat", "Ajir", "Zəfər", "Siyasət", "Azərbaycan" qəzetlərində işıq üzü görmüşdü. Hətta Təbrizdə İran Xalq Partiyasının orqanı "Xavəre Nov" qəzetinə redaktorluq da etmişdi.

F.İbrahiminin 1945-ci il sentyabrın 5-də Azərbaycan Demokratik Firqəsinin rəsmi orqanı kimi fəaliyyət göstərən "Azərbaycan" qəzetindəki silsilə məqalələri xalqımızın zəngin tarixi və mədəniyyətinin öyrənilməsi və təbliğində əvəzsiz əhəmiyyətə malik idi. Xüsusilə, qəzetin 42-ci sayından 60-cı sayınadək (31 oktyabr - 21 noyabr 1945-ci il) "Azərbaycan danışır... iftixarlı tariximizdən bir neçə parlaq səhifə" başlıqlı məqalələri Azərbaycan türklərində milli şüurun oyanması və inkişafında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan tarixi kitabının yazılmasında fəal iştirak edən F.İbrahimi Zeynalabidin Qiyamiylə birlikdə mövzuya aid materiallar toplayır, Təbrizin tarixi və coğrafiyası haqqında 100 il əvvəl Nadir Mirzənin fars dilində yazdığı məşhur əsəri tərcümə elətdirir.

Onun "Azərbaycan tarixi" kitabına gəldikdə isə şərəfli adını, soyadını daşıyan, prokurorluq orqanlarında qüsursuz işləyib təqaüdə çıxmış, Azərbaycan Respublikası prokurorluq orqanlarının fəxri əməkdaşı adına layiq görülmüş Firudin Ənuşirəvan oğlu İbrahimiyə minnətdarıq. O, 70 il arxivlərdə yatan, 1946-cı ildə Təbrizdə buraxılan kitabı bir növ əsirlikdən qurtarıb Azərbaycan oxucusuna təqdimatın təşəbbüskarı olub.

F.İbrahimi Milli hökuməti çökdürmək istəyən terrorçu qruplaşmalara qarşı mübarizə aparan "Babəkilər ocağında, ellər ilə od yandırıb", "Babək" adlı könüllü dəstələrin təşkilatçısı idi.

ADF yaradıldıqdan iki gün sonra Təbrizdə ana dilində "Azərbaycan" qəzeti nəşrə başlamışdı. Qəzetin səhifələrində ilk zamanlar farsca da məqalələrə yer verilirdi. Mətbu orqanın yubanmadan nəşri məsələsini S.C.Pişəvəri ortalığa gətirmiş və az müddətdə qəzet öz ətrafına Həmzə Fəthi Xoşginabi, İsmayıl Şəms, Firudin İbrahimi, Məhəmməd Biriya, Əli Fitrət, Yəhya Şeyda, Balaş Azəroğlu və digər gənc jurnalistləri, yazıçı və şairləri toplaya bilmişdi.

Bu ictimai xadimin, vətənsevər gəncin, istedadlı qələm sahibinin fəaliyyəti İranla məhdudlaşmır, 1946-cı ildə Parisdə keçirilən Sülh Konfransına qatılır. Beynəlxalq münasibətlər və hüquqi məsələlərdən yaxşı baş çıxardığına və publisistik məharətinə görə Milli Hökumət F.İbrahimini Paris konfransına İrandan göndərilən dörd nəfərlik mətbuat nümayəndəliyi tərkibinə salmışdı. Bu mötəbər tədbirdə Vətənin səsini duyurmaq üçün başqa vasitə yox idi. F. İbrahiminin yazdığı hesabatlarla yanaşı, konfransda

iştirak edən müxtəlif ölkələrin nümayəndə heyətləri, partiya və mətbuat xadimləri ilə görüşləri Azərbaycanın mövqeyini dünyaya çatdırmağa xidmət edirdi. Azərbaycan Milli Hökumətinin rəhbəri S.C.Pişəvəri 3 sentyabr 1946-cı il tarixində Azərbaycan Demokrat Firqəsinin yaranmasının bir illik bayramı münasibətilə Təbrizin dövlət teatrı salonundakı nitqində F.İbrahiminin Paris Sülh konfransından göndərdiyi hesabatları yüksək qiymətləndirərək demişdir: “Bizim hərəkatımız dil vasitəsilə dünyada nüfuz və şöhrətə malik ola bildi. Dünya bildi ki, beş milyonluq bir xalq var ki, öz dillərində yazır və oxuyur... İndi dünyanın yazıq millətləri bizi alqışlayır və bizə nicat verən bir millət kimi baxırlar”.

1946-cı ilin dekabrında xarici güclərin yardımı ilə şah rejiminin əsgəri birlikləri Azərbaycanın üzərinə yürüş edir. Azərbaycan Milli Hökumətinin rəhbərlərini və Azərbaycan Demokrat Partiyasının fəallarının bir qismini sovet hökuməti sovet Azərbaycanına gətirəndə Firudin İbrahimi gəlmir. Təbriz qan içində boğulanda Firudin İbrahimi və məsləkdaşlarının bir çoxu həbs edilir. Uzun sürən işgəncəli istintaqdan sonra 22 may 1947-ci ildə Firudin İbrahimi, özü kimi başqa mərd vətən oğulları ilə bərabər Təbriz şəhərinin “Gülüstan” bağında edam olunur.

Onun məhkəmədə irticaçı şah rejimini ittiham edən nitqi bu gün də İran azadlıqsevərlərinin qulağında səslənməkdədir: “Gün gələcəkdir ki, bütün İran xalqını öz hüquqlarından məhrum edənlər, onların mədəniyyət və milli qürurlarını tapdalayanlar, öz ciblərini və kisələrini qızılla doldurmaq xatirinə zəhmətkeş insanları istismar edənlər xalq qarşısında törətdikləri xəyanət və cinayət əməllərinə görə cavab verməyə məcbur olacaqlar”.

Həbib Sahirin yazdığı kimi, Güney Azərbaycanda, Təbrizdə “Babəkilər ocağında, məktəblərdə ana dilin oxutduran ustad olmasa da” onun özündən sonra izi, qəhrəmanlıq xatirəsi qaldı:

Nə ellərin məktəbində
Kitabını açan oldu,
Nə yazdığın qızıl yazı
Rəvac tapıb dastan oldu.
Lakin sanma bu əsrdə
Hər şey bitib nisyan oldu.

Firudin İbrahimi edam edilsə də, onu sevən xalqın qəlbində yaşadı və ədəbi qəhrəmana çevrildi. Mirzə İbrahimov “Gələcək gün”, Xəlil Rza “Hara gedir bu dünya?...” Həbib Sahir “Namurad Firudin İbrahimiyə”, Mədinə Gülgün “Firudin” əsərlərində, eləcə də Fəthi Xoşginabi, Balaş Azəroğlu və başqaları öz əsərlərində onun obrazını yaratdılar.

M.İbrahimovun yaradıcılığında mühüm mərhələ təşkil edən “Gələcək gün” romanında Cənubi Azərbaycanda baş verən azadlıq hərəkatı bədii boyalarla göstərilir. Güney Azərbaycanı yaxından tanıması, xalqın həyatına dərindən bələdliyi yazıçıya bu həyatı dəqiq təsvir imkanı qazandırıb. Ona xalqın milli azadlıq hərəkatının baş qəhrəmanlarından biri kimi təsvir etdiyi obrazların prototipini canlı həyatdan götürmək şansı verib. Romanda ikinci dünya müharibəsindən əvvəl və müharibə illərində İranda, Güney Azərbaycanda baş verən ictimai-siyasi proseslərdən, Pişəvəri hərəkatından, sovet ordusunun 41-ci ildə İrana girməsindən bəhs edilir.

Baş qəhrəman Firudinin prototipi 40-cı illərdə Güney Azərbaycanda milli demokratik hərəkatın rəhbərlərindən biri olan alovlu vətənpərvər, prokuror Firudin İbrahimidir. Təbriz yaxınlığında, Azərşəhrdə doğulan Firudin hakim rejimin məmuru Hikmət İsfahani ilə mübahisəsindən sonra həbs olunur. Sonra isə zindandan qaçaraq Tehrana gəlir və “istibdad rejimi” əleyhinə mübarizə aparmaq üçün təşkilatlanan qrupa qoşulur. Hadisələrin mübarizə və faciə dolu axarı bundan sonra başlayır. “Gələcək gün” romanı güclü bədii ümumiləşdirmələrinə, real həyatda baş verən hadisələrlə birbaşa səsləşdiyinə görə, bu mövzuda yazılmış digər əsərlərdən fərqlənir. Romanda xalqın azadlığı uğrunda mübarizə aparan Firudin İbrahimin və onun ailəsinin faciəsi inandırıcı bədii lövhələrlə təsvir olunur.

Başqa bir müəllifin - Xalq şairi Xəlil Rzanın Cənubi Azərbaycanın dərdlərindən xəbər verən “Hara gedir bu dünya?..” poemasında Firudin İbrahiminin qəhrəman obrazı ilə rastlaşırıq. Tarixlər boyu “Hara gedir bu dünya?..” problemi bir çox xalqların sənətkarlarını düşündürdüyü kimi X.Rzanı da narahat etmişdir. Əsər Azərbaycanı ikiyə bölən, onun Şimalını bir, Cənubunu başqa imperiyanın caynağına verən, Azərbaycan xalqını əslindən, kökündən, tarixindən, qədim ənənələrindən, mənəviyyatından ayırmaq üçün bütün vasitələrə əl atan qüvvələrə qarşı çevrilmişdir.




Əsərin “Qalx ayağa, Vətənim!” bölməsində böyük məslək və əqidə sahibi, Cənubi Azərbaycanın ilk demokratik hökumət qurumunun baş prokuroru, məhbus Firudin İbrahiminin tərtəmiz kostyum geyib, qalstuk bağlayıb edam olunacağı vaxtı gözləməsindən söz açılır. Ölümqabağı Firudinin:

- Mənim eşqim, məsləkim günəş qədər təmizkən,

De, nə üçün ölümə miskin getməliyəm mən?

- deməsi onun əqidəsinin paklığını göstərir.

Əsərin sonunda müəllif Firudin İbrahiminin nəfəsindən, canından, iliyindən, qanından çıxmayan “dosta dayaq, düşmənə, yada qənim” olan:

“Qalx ayağa, Vətənim!
Qalx ayağa, Vətənim! ”
- sözlərini bir daha xatırladır.

Firudin İbrahimi özündən sonra gələcək nəsillərə qəhrəmanlıqla dolu bir iz, xatirə qoya bildi və tarixə, yaddaşlara əbədi həkk olundu. ❖

**Pərvanə Məmmədli**